## TƏSVİRİ SƏNƏT

**UOT 7.01**

***Ülya Abdullayeva***
***Azərbaycan Dövlət Rəssamlıq***
***Akademiyasının dissertantı***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** ulya.abdullayeva@yahoo.com

# CƏLAL QARYAĞDININ YARADICILIĞINDA YARADICI ŞƏXSİYYƏTLƏRİN OBRAZLARI

**Xülasə:** Bu məqalədə Azərbaycan heykəltəraşlıq sənətinin aparıcı simalarından biri, Bakını, eləcə də respublikamızın bir çox ərazilərini monumental yaradıcılıq işləri ilə daha da gözəlləşdirən Cəlal Qaryağdının yaratdığı Vətənimizin yaradıcı şəxsiyyətlərinin obrazlarından söhbət açılır. Qafqazın musiqi beşiyi Şuşada, həm də məşhur Qaryağdılar ailəsində doğulan, yetkinləşən C.Qaryağdıya musiqi, xüsusilə muğamın sirli, sehirli dünyası tanış və doğma idi.

Azərbaycanın sənət dünyasının o vaxtkı korifeyləri ilə şəxsi tanışlıq, dostluq telləri həmişə tişə ustasını yeni əsərlər yaratmağa sövq etmişdir. Poeziyanı, muğamı, musiqini dərindən anlayan, duyan heykəltəraşın bu səpkidə yaratdığı heykəltəraşlıq nümunələrində kompozisiya bütövlüyü, bədiilik, qəhrəmanın mənəvi və xarici dünyasının vəhdəti uğurla təsvir edilmişdir.

**Açar sözlər:** Azərbaycan, heykəltəraş, yaradıcılıq, obraz, portret.

Azərbaycan heykəltəraşlığı xalqımızın tarixi qədər qədim və zəngindir. Plastika sənətimiz öz mənşəyinə görə bir çox tarixi və bədii yaradıcılıq köklərinə bağlıdır. Bu köklərin ən qədimi orta daş dövründən (e.ə. XII minillikdən) başlayaraq yerli qəbilələrin bədii yaradıcılığını təmsil edən, ulu babalarımızın mənəvi dünyasını əks etdirən Qobustan qayaüstü təsvirləridir. İlkin qaynaqlardan başlamış orta əsrlərə və daha sonrakı dövrlərə aid sənət abidələrinin, təsviri incəsənət nümunələrinin mövcudluğu çağdaş heykəltəraşlığımızın nə qədər zəngin ənənələrə malik olduğunu təsdiqləmişdir [1. S 6-7].

Çağdaş Azərbaycanın heykəltəraşlıq məktəbinin banilərindən biri Cəlal Qaryağdı 1915-ci ildə Şuşada anadan olmuşdur. "Qafqazın konservatoriyası" kimi

məşhur olan Şuşada, həm də xanəndə Cabbar Qaryağdıoğlunun qardaşının ailəsində dünyaya göz açan tişə ustasının tez-tez yaradıcı şəxsiyyətlərin obrazlarına müraciət etməsi təsadüfi deyil. Ürəyində sənət eşqi, yaratmaq yanğısı olan heykəltəraşın yaradıcılığında sənət adamlarına - şairlərə, bəstəkarlara, müğənnilərə xüsusi yer ayırmasının səbəbi doğulub boya-başa çatdığı Şuşa mühiti, sənətkar nəslindən olmasıdır.

1934-cü ildə Gürcüstan Rəssamlıq Akademiyasına daxil olan C.Qaryağdı portretçi-heykəltəraş Yakob Nikoladzenin emalatxanasında heykəltəraşlıq sənətinin sirlərinə yiyələnməyə başlayır. Nikoladzenin təlim sistemi naturanın ətraflı, dəqiq və diqqətlə öyrənilməsini nəzərdə tuturdu. Məhz bu təlimin nəticəsi olaraq gənc Cəlal Qaryağdı canlı naturanı rəssam baxışı ilə müşahidə etmək, onun plastik xüsusiyyətlərini dəqiqliklə əks etdirmək qabiliyyətini yüksək peşəkarlıqla mənimsəyir [2. S 10].

1937-ci ildə böyük rus şairi A.S.Puşkinin yubiley tədbirləri çərçivəsində keçirilən sərgidə tişə ustası özünün ilk yaradıcılq əsərini - A.S.Puşkinin barelyefini nümayiş etdirir. Şairin portretlərinə əsaslanaraq yaradılmış barelyefdə lirik əhval ruhiyyə və incə plastik keçidlər gənc heykəltəraşın formalaşmaqda olan yaradıcılıq dəst-xəttini açıq-aydın nümayiş etdirirdi [2. S 10].

Yaradıcılığının bu erkən mərhələsində heykəltəraşlığın barelyef növünə daha çox maraq göstərən C.Qaryağdı görkəmli gürcü şairi Şota Rustavelinin barelyef-portretini yaradır. Artıq bu barelyefdə heykəltəraş incə plastik formalar qurmaq bacarığı ilə bərabər özünəməxsus yapma texnikasının və incə plastik səthlərin mahir ifaçısı kimi çıxış edir.

Heykəltəraşlıq əsərlərində insan surəti müxtəlif səpkidə əks etdirilir. Əgər sənətkar insanın başını təsvir edirsə, bu portret nümunəsidir. İnsanı sinəsinə qədər əks etdirən büstlər də portret sayılır. İnsanın bədəni, yaxud fiquru tamlıqda, ayaqüstü, həmçinin müxtəlif poza və vəziyyətlərdə verilə bilər [5. S 42].

Tişə ustasının büst-portretlər yaratmaq sahəsində də uğurlu işləri çox olmuşdur. Onun büst-portretlərində dərin psixoloji ifadəlilik və yüksək plastik ifadə həlli ilə işlənmə xüsusiyyətləri aydın nəzərə çarpır. Heykəltəraş öz yaradıcılıq axtarışlarında tarixi mövzulara tez-tez müraciət etmişdir. Azərbaycanın görkəmli yaradıcı adamlarının obrazlarını yaratmaq Cəlal Qaryağdının yaradıcılığının əsas istiqamətlərindəndir.

Heykəltəraşın yaratdığı Azərbaycan professional rəssamlıq sənətinin banisi, istedadlı fırça ustası, cəmi 30 il yaşamış əsl ziyalı Bəhruz Kəngərlinin büst-portretində (1947) gənc rəssamın dərin psixoloji və mənəvi dünyası qabarıq cizgilərlə göstərilmişdir.

1949-cu ildə C.Qaryağdının mərmərdən hazırladığı XIX əsr Azərbaycan şairəsi Xurşud Banu Natəvanın büstü müəllifin istedadının əsas cəhətlərini, milli duyğularını qabarıq göstərir. Heykəltəraş Natəvanı yalnız lirik şairə kimi deyil, ziyalı və zəngin aləmə malik zadəgan azərbaycanlı qadın obrazının ümumiləşdirilmiş rəmzi kimi verməyə çalışmışdır. XIX əsr Azərbaycan qadınına xas milli geyimdə, başı örpəkli, qəmgin baxışlı Natəvan obrazı hər bir azərbaycanlı

tamaşaçıda lirik və incə hisslər oyadır [2. S 30]. Tişə ustası bu sənət nümunəsində sadəcə bir qadın obrazı deyil, geniş düyagörüşlü şairə mütəfəkkir obrazı yaratmağa nail olmuşdur.

Bu obraz üzərində axtarışlar aparan heykəltəraş nəticədə zahiri və daxili gözəlliyə malik "Azərbaycan qadını" obrazını ümummilli estetik və mənəvi sərvət səviyyəsinədək yüksəldə bilmişdir [2. S 30]. Bu milli xüsusiyyət büst-portretdəki paltarda,baş örtüyündə, ümumi şəkildə baş örtüyündə deyil, hər şeydən əvvəl şairənin daxili mahiyyətini göstərən lirik planda verilməsindədir [3. S 10].

Dövrünün məşhur musiqiçi ailəsində doğulan C.Qaryağdıya musiqi dünyası həmişə doğma olub. Buna görə də heykəltəraş incəsənətin bu sahəsinin məşhur sənətkarlarının portret-büstlərini yaratmağa böyük həvəs göstərmişdir. Bu silsiləyə daxil olan xalq artistləri Bülbülün (1953), Rəşid Behbudovun (1953), bəstəkarlar Cahangir Cahangirovun (1954), Niyazinin (1960), Qara Qarayevin (1964), Fikrət Əmirovun (1964), tarzən Hacı Məmmədovun (1965), kamança ustası Habil Əliyevin (1961) portretləri uğurlu sənət nümunələridir. Heykəltəraş yaratdığı obrazın fərqli xüsusiyyətlərini qətiyyən nəzərdən qaçırmamalıdır. Tanınmış mədəniyyət xadimlərinin həm xarici, həm də daxili oxşarlığı ilə tişə ustasının yaradıcılıq axtarışlarını sübut edir [3. S 11].

Heykəltəraşın Bülbülün ölümündən bir il əvvəl yaratdığı portretdə müğənni klassik frakda, sanki səhnədən tamaşaçılara baxarkən təsvir olunmuşdur. Müğənninin boynundakı "papillon" qalstuku, frakının yaxalığının üstündə nəzərə çarpan "Şərəf nişanı" ordeni təsvir edilənin artist olmasına işarədir. Heykəltəraş Bülbülü xalq mahnılarını ifa edən müğənni kimi deyil, daha çox klassik opera müğənnisi kimi təqdim edib [2. S 38]. 1960-cı illərdə Cahangir Cahangirovun əsərləri onu qısa müddətdə xalqın sevimlisinə çevirir. Belə şəraitdə, təbii ki, bəstəkarın əsərlərinə və şəxsi keyfiyyətlərinə maraq göstərən Cəlal Qaryağdı bəstəkarın portretini işləməyi qərara alır. Tişə ustası portretin çoxsaylı eskizlərini işləməyə başlayanda C.Cahangirov dövlət tərəfindən fəxri ada və dövlət mükafatına layiq görülür. Bu da heykəltəraşın bəstəkarın sənətinə və şəxsiyyətinə marağı artırır. Bəstəkarın portreti 1954-cü ildə Moskvada Zaqafqaziya rəssamlarının sərgisində nümayiş etdirilmişdir.

İncəsənət xadimlərinin heykəlləri sırasında bəstəkar, dirijor "maestro" Niyazinin obrazı başqalarından bir çox cəhətlərə görə seçilir. Heykətəraş bu əsərində rəsmi portret obrazı deyil, Niyazini özünəməxsus sifət cizgilərinə, daxili xasiyyətə və temperamentə malik bir şəxsiyyət kimi təqdim edir. Portretin sifət cizgiləri ilə bərabər, plastik formalar və səthlərin fakturası da dirijorun daxili temperamentini əks etdirərək, sərt və dinamik yapma üsulu ilə işlənmişdir [2. S 45].

Əsərlərində Azərbaycan xalq musiqisinə və muğamlara geniş yer verən, klassik simfonik musiqini milli çalarlarla zənginləşdirən Fikrət Əmirov dolğun bir şəxsiyyət, istedadlı sənətkar kimi musiqisevərlərin, həmçinin Cəlal Qaryağının diqqətini cəlb etməyə bilməzdi. Heykəltəraş əsərində bəstəkarın yaradıcılıq anını yaşadaraq F.Əmirova xas səciyyəvi dərin düşüncələri və iztirablı baxışını obrazın

əsas qayəsinə çevirir. Sadə və lakonik plastik formalarla yapılmış portret cizgiləri bəstəkarın real həyatdakı sadəliyi, təvəzökarlığı və özünəməxsusluğu ilə üst-üstə düşür.

Şöhrəti nəinki Vətənimizdə, dünyanın əksər inkişaf etmiş ölkələrində tanınan görkəmli bəstəkar Qara Qarayevin yaratdığı monumental simfoniyalar hər bir azərbaycanlı kimi Cəlal Qaryağdının da qəlbini qürur hissi ilə doldururdu.Yaradıcılq məsələsinin mürəkkəbliyi, digər tərəfdən isə bəstəkarın həyatda və yadıcılıq anlarında fərqli simalara malik olması obrazın tapılmasında çətinliklər törətdiyindən tişə ustası bəstəkarın portretini bir neçə variantda yaratmağa çalışmışdır. Heykəlin son variantı mərmərdən yonulmuşdur. Əvvəlkindən fərqli olaraq, burada plastikanın dinamizmi və yapma ekspressiyası bir o qədər nəzərə çarpmırdı. Daha hamar və "yumşaq" işlənmiş səthlərin və formaların fakturası portretin monumental xüsusiyyətlərini nəzərə çarpacaq dərəcədə artırırdı [2. S 48].

Heykəltəraşın yaratdığı məşhur kamança ustası Habil Əliyevin portreti sənətkarın "sehrli" barmaqlarını kamançanın pərdələri üzərində gəzdirdiyi zaman sanki musiqi aləminə qərq olunmuş halda təsvir edilmişdir. Portretdə ifaçının qəmgin və dərin düşüncələrə dalmış siması klassik xalq musiqimizin - muğamın ifa edildiyinə işarədir. Bu obraz kamança ustadının xalqın yaddaşına hopmuş obrazını tamamlayır.

C.Qaryağdının digər əsəri olan tarzən Hacı Məmmədovun portretinin kompozisiyasında tarı köksünə sıxmış tarzən mizrabı tarın zərif tellərinə toxundurduğu məqamda təsvir olunmuşdur. Qəhrəmanın duyğulu baxışları və tara söykənmiş çöhrəsinin aldığı ifadədən tamaşaçıda həzin muğam melodiyaları hissi yaradır.

Xatirə abidələrinin qoyulmasında əsas məsələlərdən biri onun yerləşəcəyi sahə ilə abidəni əhatə edən ərazi arasındakı əlaqədir [4. S 63]. Tişə ustasının müəllifi olduğu bəstəkar Zülfüqar Hacıbəyovun qəbirüstü abidəsi yerləşdiyi məkanla üzvi əlaqə yaradır. Qəbirüstü abidənin yastı sinə daşının dik sütunu ilə bağlılığı ilk baxışdan nəzərə çarpır. Sütunun yuxarı hissəsindəki bəstəkarın barelyefi dərin olmayan relyeflə hazırlanmışdır. Buna görə də abidənin kompozisiyası çox aydın oxunur [4. S 54].

Çağdaş Azərbaycanın heykəltəraşlıq sənətinin korifeylərindən biri olan Cəlal Məhərrəm oğlu Qaryağdı fərdi dəst-xəttə, ifa tərzinə malik romantik ruhlu, ehtiraslı və cəsarətli plastik formalara üstünlük verən tişə ustası idi. Milli xarakteri qəlbən duyaraq aşkarlayan sənətkar yaratdığı heykəl-abidələrdə təcəssümünü tapan və xalqın tarixində əhəmiyyətli yer tutan, istedadları ilə dünyanın çox ölkələrində tanınan və Azərbaycanı tanıdan görkəmli simaları nəsillərə tanıdırdı.

## Ədəbiyyat:

1. Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı (XX əsr). Bakı: "Nurlan" nəşriyyatı, 2004

2. Cəlal Qaryağdı. "Sərvət" albomlar silsiləsi. Bakı: "Şərq - Qərb" Nəşriyyat Evi, 2013
3. Tərlanov M. Cəlal Qaryağdı. Bakı: "Azərnəşr", 1958
4. Novruzova C.Azərbaycanda xatirə heykəltəraşlığının bəzi məsələləri haqqında. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, 1970, № 4 (rus dilində).
5. Həbibov N. Təsviri sənət haqqında. Bakı:Gənclik, 1967

**Улья Абдуллаева**

**Образы творческих личностей в творчестве Джалала Гарягды**

**Резюме**

В этой статье рассматриваются образы творческих личностей нашей Родины, созданные Джалалом Гарягды, одного из ведущих фигур азербайджанского скульптурного искусства, который своим монументальным творчеством украсил Баку, а также многие области нашей страны. Д. Гарягды, родившемуся в Шуше, в музыкальной колыбели Кавказа, в известной семье знатного рода, была хорошо известна музыка, в особенности знакомой и родной ему был таинственный и волшебный мир мугама.

Личное знакомство и дружеские узы с тогдашними корифеями мира искусства Азербайджана всегда побуждали мастера создавать новые работы. Целостность, артистичность, единство композиций, духовный и внешний мир героинь, успешно описанные в скульптурных работах, созданными скульптором, которому в этом помогло глубокое понимание поэзии, мугама, музыки.

**Ключевые слова:** Азербайджан, скульптор, творчество, образ, портрет.

**Ulya Abdullayeva**

**Images of creative personalities in the works of Jalal Garyaghdy**

**Summary**

This article discusses the images of creative personalities of our country, created by Jalal Garyaghdy, one of the leading figures of the Azerbaijani sculptural art, whose monumental work has graced Baku, as well as many areas of our country. D. Garyaghdy, born into the noble family in Shusha, the musical cradle of the Caucasus, knew familiar and native to him mysteious and magic world of mugham. Personal acquaintance and friendly ties with luminaries of the art world of Azerbaijan always encouraged the master to create new works. Integrity, artistry, the unity of the compositions, the spiritual and the external world of the heroes are successfully described in the sculptural works created by the sculptor, through poetry, mugham, music.

**Keywords:** Azerbaijan, sculptor, creation, character, portrait.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.05.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.05.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 19.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**